**Zaman Piriyev**

# SAMİRİNİN ŞİFRƏSİ:
# LƏ MİSƏS

QANUN NƏŞRİYYATI

## Mündəricat

Atəşfəşanlıq ....................................................4
Məhəllə ..........................................................17
İlıq aprel günəşi ...........................................27
Zəlzələ ............................................................36
Uzunqulağın arzusu .....................................44
Milyonçu olmaq istəyən kuryer ......................48
A... U... O... .....................................................59
Samirinin şifrəsi: "Lə misəs" ..........................71
Bəhmən müəllim naxoşdur ..............................84
Xəzər dənizdir, yoxsa göl? (Esse) ...................93

## ATƏŞFƏŞANLIQ

Məni kameraya üzüqoylu atanda artıq axşamdan xeyli keçmişdi. Başımdakı və bədənimdəki ağrılar məni elə hala qoymamışdı ki, hələ bir saat haqda da düşünüm. Bir xeyli kameranın ortasında uzanıqlı vəziyyətdə qaldım. Bu vaxt gözətçinin boğuq, vahiməli səsi eşidildi:

– Nə gözləyirsən, bəlkə, gəlib səni yatızdıraq. Bura sənin üçün hotel deyil, sənin kimilərini güllələmək lazımdır, hələ sevin ki, sağsan.

Güclə göz qapaqlarımı aralayıb bu murdar məxluqun üzünə baxmaq istədim. Lakin zəif elektrik lampalarının işığında onu yalnız kölgə kimi gördüm. Səhər sağ böyrəyimdəki zoqquldayan güclü ağrı qapı döyürmüş kimi qarnımın içini taqqıldadaraq məni oyatdı. Ayağa durmaq istədim, lakin müvazinətimi itirərək döşəməyə yıxıldım. Olanları xatırlamağa çalışıram. Heç cür əlaqə qura bilmirəm. Uzaq kənddə şəbəkə xidməti xaricinə çıxan telefon kimi qırıq-qırıq epizodlar gözümün qabağına gəlir. Tək bir kəlmə zoqquldayan ağrıların ritmi ilə ruhuma hopub təkrarlanır: “Vətən xaini!”

O müdhiş, qaranlıq saatları bir neçə saniyənin içinə sığışdırıb xatırlamaq cəhənnəm əzabı verir. Hansı vətənə xəyanət! Hər gün yüz dəfə namusunu kirlətdiyiniz, şərəfinə tüpürdüyünüz, övladlarını bir tikə çörəklə imtahan etdiyiniz Vətənə?! Bəlkə, Vətən sizin zülmlə yoğrulan, mayası haram, suyu məzlumların göz yaşları ilə qarışan namussuz həyatınızdan ibarətdir. Dəbdəbəli saraylarınızın çıraqları məzlumların ahı ilə yanır. İndi mənmi oldum Vətən xaini!? Qapının ağzında səslər eşidilməyə başladı.

– 18-ci kameranı aç!

Ağır qapının açarı onun beyninin içində fırlanırdı. Təcridxana gözətçisi məni bu vəziyyətdə görəndə qəzəbli halda, söyə-söyə harama gəldi təpiklədi:

– Qalx, şərəfsiz, fahişə! Sənə deməyiblər ki, rəis gələndə necə durmaq lazımdır?! İt oğlu, qalx! Gözətçilər məni ayağa qaldırıb divara söykədilər.

– Bundan sonra sən burada istədiyin kimi yaşaya bilməzsən. Hər gün saat doqquza kimi bütün kamera təmiz, yatağın yığılmış vəziyyətdə hazır olsun. Qapı açıldığı vaxt əllərin arxanda divara tərəf dur. Yaxınlaşmağa cəhd eləmə. Adını, soya-

dını, hansı maddə ilə tutulmusan, hamısını bir-bir de. Aydındır?!

Mən sağ tərəfə əyilmiş halda, ağrıdan qıvrılaraq başımı yellədim. Elə bil gözətçinin anasına söydülər. Var gücü ilə qarnıma təpiklə necə vurdusa, ikiqat olub diz üstə çökdüm.

– Buna səhər yeməyi verilib?

– Səhər bayılmışdı, ona görə yemədi getdi.

İstehzalı qəhqəhələr.

Qapını möhkəmcə çırpıb getdilər. Elə bil məni dərin bir quyuya atıb ağzını qaya parçası ilə bağladılar. Sürünüb birtəhər unitaza çatdım. Mədəmdə nə vardı, qaytardım. Ağzımdan acı zəhər kimi su axdı. Elə bildim ki, bütün içalatımı da qusdum. Həmin gün bir neçə dəfə ağrıdan bayılmışam. Nəhayət, insafa gəlib həkim çağırıblar. Həkim ağrıkəsici dərman verəndə nəzarətçiyə dediyi sözləri eşitdim:

– Böyrəyi və mədəsi çox ciddi zədə alıb, deyəsən. Həkim nəzarətində olmalıdır bir müddət.

– Buna biz qərar vermirik. Hər halda yuxarıdan nə desələr, o olacaq.

– Mən bu barədə yuxarıya məruzə edərəm. Heç olmasa yemək rejiminə nəzarət etmək lazımdır, yoxsa mədəsi qanaxma verə bilər. Böyrəyin-

də, yəqin, daş olub, düşüb sidik kanalına. Tutma verən də, yəqin, odur.

– Heç nə olmaz buna. Gərək bu günü vətənə xəyanət edəndə fikirləşəydi.

Axşam yatmazdan əvvəl bir ağrıkəsici iynə vurdular. Çünki artıq dərman təsir etmirdi.

Beləcə yuxuya getdim. Yuxuda evimi, ailəmi gördüm. Kiçik oğlum mənə tərəf qaçırdı, amma heç cür ona qovuşa bilmirdim. Hər dəfə əlini uzadanda araya qatı bir duman çökürdü. Amma nədənsə, mənə elə gəlirdi ki, bu duman yağışdan sonra torpağın isti nəfəsindən buğlanır, yaxın vaxtlarda günəşli günlərin olacağı haqda siqnal verir. Bu müjdəni arvadım Əminənin parıldayan gözlərində də sezə bildim. Nəsə deyirdi, amma heç cür eşidə bilmirdim. Bircə gözləri ümidli idi.

Qapının səsinə ayıldım. Üst paltarımı geyinməyə macal tapmamış nəzarətçi və gözətçilər kameraya girdilər.

– Sənə deyilməyib ki, nəzarətçi içəri girəndə hazır vəziyyətdə olmalısan?!

Sinəmə möhkəm bir yumruq ilişdirdi.

– Əllər arxaya, özünü təqdim elə.

– Yavuz Dönməz.

Soyadımı deyəndə bu balacaboy, göygöz əclaf hırıldayıb:

– Dönməz, Dönməz. Dönərsən, dönməzsən, zorla döndərərik.

– Türk cəza qanunu, 328-ci maddə. Siyasi və əsgəri casusluq ittihamı ilə həbs olunmuşam. Lakin mənim heç bir günahım yoxdur.

– Saxla! Bura məhkəmə zalı deyil. Onları məhkəmədə deyərsən. Hələ məhkəməyə qədər yaşasan. Hazırlaş, saat 10-da müstəntiqin yanına çıxacaqsan.

Bir anlıq mənə elə gəldi ki, bu kameradan çıxa bilsəm, hər şey bitəcək. Yuxuda gördüyüm qatı duman da Əminənin gözlərindəki parıltı ilə yoxa çıxacaq. Əllərim kiçik oğlumun əllərinə qovuşacaq. Bu ümid işığı iki gündür zülmətə bürünmüş dünyamda ağ yol kimi göründü.

Müstəntiqin otağı beşinci mərtəbədə idi. Başıma torba keçirsələr də, bir mərtəbə aşağı düşdüyümüzü, ordan da sağa dönüb ya üçüncü, ya da dördüncü otağa girdiyimizi fərq etdim.

– Vətəndaş Yavuz Dönməz, Türk cəza qanunu, 328-ci maddə ilə dövlət əleyhinə casusluq etmə ittihamı ilə həbs olunmusuz. İlkin ifadənizdə özünüzü təqsirkar saymadığınızı, bu ittihamın

böhtan və yalan olduğunu yazmısınız. Lakin gizli şahid ifadələri və sizin qəzetlərdə çıxan yazılarınız əsasında belə aydın olub ki, siz bu dövlətin ədalətinə şübhə edirsiz. Ona görə də bu sistemin dəyişilməsinin vacib olduğunu, xarici dəstək olarsa, inqilab yolu ilə hakimiyyəti ələ keçirməyi düşünmüsüz. Bu məqsədlə bir neçə xarici ölkə səfirlikləri ilə əlaqələr qurmusuz. Hətta il ərzində iki dəfə Almaniyada olmusuz. Bunları necə izah edə bilərsiniz? Həmçinin Almaniya səfirliyi sizə xüsusi təşəkkürnamə verib. Bu hansı xidmətlərinizə görə verilib?

– Birincisi, mən bir qəzet işçisiyəm, köşə yazarıyam. Bu sistemdən razı qalmamaq haqqım var. Düşündüklərimi yazmaq və ictimaiyyətə çatdırmaq mənim vəzifəmdir. İkincisi, əgər məmləkətdə fəhlə, kəndli istismar edilirsə, kredit adı ilə bütün həyatı satın alınırsa, banklar insanları soyub soğana çevirirsə və dövlət işlərində xalqa xidmət etməli olan məmurlar onları əzirsə, polis hakimiyyəti xalqın qəzəbindən qoruyan bir sistemə çevrilibsə, mən necə ədalətə inana bilərəm. Bu məmləkətdə ədalət yoxdur. Almaniyaya getməyimə gəlincə, ora müalicə üçün getdiyim açıqca sənədlərdə mövcuddur. Sağ olsun, uşaqlıq

dostum bütün xərcləri öz boynuna götürdü. Almaniyada biznesmendir. Bir dəfə müayinə üçün getmişəm, üç ay sonra isə əməliyyat üçün yenidən getmişəm. Xarici ölkə səfirlikləri ilə əlaqələrə gəlincə, bir qrup mətbuat işçisi ilə birlikdə bu görüşlər baş tutub. Azad Mediaya Dəstək İctimai Birliyi bu görüşləri tərtib edib. Təşəkkürnamə də məhz bu görüşlərdə fəallıq etdiyimə görə verilib. Bütün bunlar mətbuatda işıqlandırılıb. Bunlar nə zamandan cinayət olub?

– Yavuz Dönməz, siz deyirsiniz ki, bu boyda dövlət sizə böhtan atır?!

– Cənab müstəntiq, bu boyda dövlət haqsız qazanc güdən bir bankı tərəfdaş hesab edib, öz vətəndaşlarını soymasına şərait yaradırsa, demək, mənə böhtan da atar, lazım olsa, başıma güllə də atar. Öz xalqı ilə kölə kimi davranan bir rejim bir gün həmin xalqın ayaqları altında əzilib məhv olacaq.

– Bütün bu dediklərinizi, yəqin ki, Fridrix Brauerlə söhbətlərinizdə də demisiz?

– Mən açıq fikirli adamam.

– O qədər açıq fikirli ki, hətta dövlətin sirlərini alman xüsusi xidmət orqanlarının əməkdaşına satmaqdan belə çəkinməmisiz?!